# Bakıətrafı qəsəbələrin siması gündən-günə gözəlləşir

## Ölkə başçısı mütəmadi olaraq Bakının rayonlarında və qəsəbələrində həyata keçirilən quruculuq və abadlıq işləri ilə yaxından tanış olur

**Azərbaycanın son illər sosial-iqtisadi sahələrdə qazandığı uğurlar davamlı islahatların real nəticəsidir. Ölkədə geniş miqyas alan abadlıq və quruculuq işləri ildən-ilə genişlənir. Respublikamızın bütün regionlarında yollar çəkilir, körpülər salınır, turizm obyektləri inşa edilir, bir sözlə, tamamilə yeni infrastruktur formalaşır.**



Bu inkişafın bir mühüm səbəbi var ki, o da ölkədəki sabitliyi təmin edən, davamlı islahatlar həyata keçirən, Azərbaycanın dünyaya inteqrasiyasını təmin edən düşünülmüş siyasi kursun reallaşmasıdır. Bu siyasətin nəticəsidir ki, paytaxtımız Bakı şəhəri Cənubi Qafqazın mərkəzi statusunu da aşaraq dünyanın ən nüfuzlu sammitlərinin, konfransların, mədəniyyət və idman yarışlarının keçirildiyi, ən müasir və modern meqapolis standartlarına cavab verən möhtəşəm şəhərə çevrilib. Təkcə Bakı deyil, onun ətraf qəsəbələri də dövlətimizin qayğısı nəticəsində tamamilə yeniləşib. Son illər Bakı və onun ətraf qəsəbələrinin sürətli inkişafı Dövlət Proqramlarının icrasının real nəticəsidir.

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Bakı şəhəri və ətraf qəsəbələrin inkişafının sürətləndirilməsi, o cümlədən elektrik enerjisi, qaz, su və kanalizasiya, istilik təchizatı sahəsində davamlı işlərin aparılması, yolların və digər infrastruktur obyektlərinin, eləcə də sosial-mədəni infrastruktur obyektlərinin (təhsil, səhiyyə, mədəniyyət, idman, əhalinin sosial müdafiəsi və s.) inşası, beynəlxalq standartlara uyğun yenidən qurulması, ekoloji vəziyyətin yaxşılaşdırılması, yeni müəssisələrin və iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

Ümumilikdə Dövlət Proqramında 17 müxtəlif sahəni əhatə edən 445 tədbirin icrası nəzərdə tutulmuşdur ki, bunlardan da 28-i ümumərazi inkişaf tədbirlərini, 417-si isə Bakı şəhərinin rayonlarını əhatə edir. Proqrama əsasən, müəyyən edilmiş tədbirlərin icrası paytaxt və onun qəsəbələrinin davamlı inkişafına, infrastrukturun yeniləşdirilməsinə səbəb olmaqla yanaşı, təbii və iqtisadi potensialdan, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin daha da azaldılmasına təkan verəcəkdir. Dövlət Proqramının icrası qəsəbələrin simasını əsaslı şəkildə dəyişdi. Proqram çərçivəsində görülmüş işlər paytaxt və onun qəsəbələrinin inkişafında, infrastrukturun yeniləşdirilməsində, təbii və iqtisadi potensialdan, əmək ehtiyatlarından səmərəli istifadə edilməsində, əhalinin məşğulluğunun artırılmasında və ölkədə yoxsulluq səviyyəsinin daha da azalmasında xüsusi əhəmiyyətə malikdir.

Dövlət Proqramına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Bakı şəhəri, ətraf qəsəbələr və yaşayış massivlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin icrası uğurla davam etdirilir. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov mətbuata bildirib ki, bu vəzifələrdən irəli gələn məsələlərin həlli 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla hazırlanmış "Abşeron yarımadasının su təchizatı, kanalizasiya sistemləri və yağış suları sistemlərinin Master Planı" çərçivəsində həyata keçirilir. 2010-2015-ci illər ərzində Abşeron yarımadasında içməli su təchizatının yenidən qurulması məqsədilə çoxsaylı layihələr həyata keçirilmişdir: "Bu layihələr çərçivəsində 2100 km-dən artıq magistral və şəbəkə su xətti, 350 km kanalizasiya kollektoru və xətti tikilmiş, 39 ədəd anbar istifadəyə verilmişdir. Eyni zamanda 1100-dən artıq çoxmənzilli yaşayış binasının içməli su şəbəkəsi, 4550-dən artıq binanın zirzəmisində kanalizasiya xətləri yenilənmiş, 265 min smart sayğac quraşdırılmışdır. Görülmüş işlər nəticəsində ilk dəfə mərkəzləşdirilmiş qaydada su ilə təmin olunmuş əhalinin sayı 270 min nəfər, fasiləsiz rejimdə içməli su ilə təmin olunanların sayı 1 milyon 550 min nəfər artmışdır. Yeri gəlmişkən, hazırda Bakı şəhəri üzrə xidmət göstərilən əhalinin 80%-ə yaxını fasiləsiz rejimdə içməli su ilə təmin olunur."

Ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasəti paytaxtın və ətraf qəsəbələrin dinamik inkişafına ciddi təkan vermişdir. Dövlət başçısının "Ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır" prinsipinə uyğun olaraq, Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycanın hər yerində olduğu kimi, Bakıətrafı qəsəbələrdə də sahibkarlığın inkişafına xüsusi önəm verilir.

Azərbaycan Prezidentinin sosial-iqtisadi siyasətinə uyğun olaraq, Dövlət Proqramının icrası zamanı sosial sahələrin inkişafı daim diqqət mərkəzində olmuşdur. Dövlət başçısı proqramın icrası ilə bağlı bir sıra sosial obyektlərdə, o cümlədən 60-dan çox təhsil müəssisəsində işlərin gedişatı ilə şəxsən tanış olmuş, təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir. Bu isə təhsil müəssisələrinin inşası, təmiri və yenidən qurulması ilə bağlı tədbirləri daha da sürətləndirmişdir.

Proqram çərçivəsində paytaxtda və ətraf qəsəbələrdə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə yeni, müasir tibb müəssisələri istifadəyə verilmiş, mövcud müəssisələrin maddi-texniki bazası gücləndirilmişdir. Qeyd edək ki, proqram çərçivəsində rayon və qəsəbələrdə 41 xəstəxana, poliklinika, sanatoriya və digər tibb müəssisələri tikilmiş və ya təmir edilərək müasir avadanlıqlarla təchiz olunmuşdur.

Bakı şəhəri və ətraf qəsəbələrin sosial-iqtisadi, mədəni inkişafında, həmçinin milli mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində Heydər Əliyev Fondunun mühüm fəaliyyətini xüsusilə vurğulamaq istərdik. Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın qayğısı nəticəsində respublikamızın digər bölgələrində olduğu kimi, Bakıda, şəhərətrafı qəsəbə və kəndlərdə milli-mədəni irsimizin qorunması, mədəniyyətin, təhsilin, səhiyyənin, idmanın və digər sahələrin inkişafı ilə bağlı önəmli işlər görülmüş və hazırda bu işlər davam etdirilməkdədir. Prezident İlham Əliyev mütəmadi olaraq Bakının rayonlarında və qəsəbələrində olur, görülən tədbirlərlə, həyata keçirilən quruculuq və abadlıq işləri ilə yaxından tanış olaraq aidiyyəti qurumlara müvafiq tapşırıqlarını, göstərişlərini verir.

Xəbər verildiyi kimi, Yeni il ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın açılışında iştirak ediblər. Ölkə başçısı Zirə qəsəbəsinin bir qrup sakini ilə görüşündə son illər ərzində Bakı qəsəbələrində gedən işlər nəticəsində demək olar ki, mövcud problemlərin böyük hissəsinin həll edildiyini diqqətə çatdırmışdır: "Bildiyiniz kimi, bütün bu işlər Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsində mümkün olmuşdur. Proqram davam edir, gələn il də bir çox layihələr icra ediləcəkdir. Qarşıya vəzifə qoyulmuşdur ki, Bakıətrafı qəsəbələrdə bütün infrastruktur, sosial məsələlər öz həllini tapsın. Yaxşı yollar salınsın, məktəblər, uşaq bağçaları, tibb ocaqları, idman obyektləri tikilsin, iş yerləri yaradılsın. Biz bu istiqamətdə ardıcıl şəkildə bütün işləri görürük və əminəm ki, yaxın gələcəkdə qəsəbələrdə bütün problemlər öz həllini tapacaq." Cənab İlham Əliyev son illər Zirə qəsəbəsində müxtəlif sosial layihələrin icra edildiyini, səhiyyə, təhsil ocaqları yaradıldığını da xüsusi vurğulamışdır: "Əminəm ki, bu gözəl yeni layihə Zirə sakinlərinin sərəncamına veriləndən sonra buraya insanlar gələcəklər, istirahət edəcəklər. Uşaqlar burada müxtəlif dərnəklərdə təlim alacaqlar. Yəni, Zirə qəsəbəsinin son illərdəki inkişafı doğrudan da çox müsbətdir, uğurludur. Əminəm ki, Heydər Əliyev Fondu gələcəkdə bu qəsəbədə və bütün başqa yerlərdə öz fəaliyyətini uğurla davam etdirəcəkdir."

Bakının qəsəbələri ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində böyük uğurlar əldə etmiş, daha da gözəlləşmiş, müasirləşmişdir. Bütün bunlar qəsəbələrin həyatında yeni intibah mərhələsinin uğurlu başlanğıcıdır. Hazırda qəsəbələrin hər bir sakini dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında qazanılan uğurları həyatında daha qabarıq hiss edir, ölkəmizdəki yüksəliş və tərəqqi kursunu ürəkdən dəstəkləyir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***